# Güclü siyasət və yekdillik

(Əvvəli 3-cü səhifədə).

BMT qətnamələri dövlətlərarası münasibətlərin formalaşmasında mühüm rol oynayır. BMT qətnamələri bir çox mühüm beynəlxalq məsələlərin həllində həlledici rol oynayıb. Bu qətnamələr dövlətlərin üzərinə hüquqi öhdəliklər qoyur və beynəlxalq münasibətlərin sabitliyinə xidmət edir. Təhlükəsizlik şurasının qətnamələri məcburi qüvvəyə malikdir, Baş Assambleyanın qətnamələri isə tövsiyə xarakterlidir.

Azərbaycanın ərazi bütövlüyü ilə bağlı 1993-cü ildə Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 822, 853, 874 və 884 saylı qətnamələr mühüm əhəmiyyət kəsb edirdi. Bu sənədlər Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasını tələb edirdi. Bu dörd qətnaməyə baxmayaraq Ermənistan silahlı qüvvələri BMT-nin qərarlarına zidd olaraq dəfələrlə atəşkəsi pozmuşlar. Qətnamənin müddəaları heç vaxt yerinə yetirilmədi. Məhz buna görə də müharibə labüd idi...

2020-ci ildəki Vətən Müharibəsindən və 2023-cü ildəki antiterror əməliyyatından sonra qətnamələr öz qüvvəsini itirmişdir. Təəssüflər olsun ki, nə qətnamənin müəllifi olan BMT, nə də danışıqlar prosesində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədr ölkələri ilk gündən işğalçı Ermənistana heç bir təzyiq göstərmədi. Çünki Ermənistan işğalçı dövlət kimi tanınmadı.

Bu məsələyə obyektiv yanaşan Vəfa Quluzadə yazırdı: "Bu qətnamələr işğal faktını tanımır, Ermənistanı işğalçı adlandırmır, işğalı qınamır və işğalçını cəzalandırmaq və onun qurbanının pozulmuş hüquqlarının bərpası üçün heç bir sanksiyanı nəzərdə tutmur... Bildiyimiz kimi, Ermənistan və Rusiya daim riyakarcasına bildirirdilər ki, Azərbaycan ərazilərinin işğalında onların heç bir rolu yoxdur. Həmçinin BMT-nin üzvləri və ATƏT-in Minsk qrupunda danışıqlara vasitəçilik etmiş Rusiya, Fransa, ABŞ işğalçının Ermənistan olduğunu bilə-bilə qətnamələrdə Ermənistanı işğalçı kimi göstərməmələri onların problemin həllində maraqlı olmadıqlarını sübut etdi. Qətnamələr qəbul olunduğu dövrdə əsrin sazişi imzalanmadığından İngiltərənin bu məsələdə maraqlı olmaması ÇXR-in isə bu dövrdə Cənubi Qafqazla bağlı aydın siyasətinin olmaması qətnamələrdə Ermənistanın işğalçı dövlət kimi göstərilməməsinə şərait yaratdı. O zaman bu məsələdə Rusiya və Fransanın xüsusi canfəşanlıq etməsi qətnamələrdə əsl işğalçının göstərilməməsi ilə nəticələndi.

Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun işğal olunmuş ərazilərin azad edilməsi uğrunda apardığı 44 günlük müharibədəki şanlı qələbəsi və 2023-cü ilin 19 sentyabrında yüksək səviyyədə qısa müddətli antiterror əməliyyatı ilə beynəlxalq güclərin Azərbaycana qarşı həyata keçirmək istədikləri bütün təxribatlara, riyakarlıqlara son qoyuldu. Əvvəlki illərdən fərqli olaraq artıq Cənubi Qafqazda real gücə malik olan Azərbaycan Respublikası ilə beynəlxalq güclər riyakarlıq, təxribat dili ilə deyil, bərabər səviyyədə, beynəlxalq hüquqa uyğun münasibətlər qurmağa məcburdurlar.

Ali Baş Komandan ilə xalqın vəhdəti, xalqın gücü, ölkə rəhbərinin siyasəti nəticəsində Zəfər qazanıldı. Azərbaycan Ordusunun gücünü artıq bütün dünya dövlətləri tam aydınlığı ilə gördü. Xalqın vətənpərvər övladları ölkə tarixini yenidən yazdılar. Bu Zəfər tarixini yazarkən "ölümün gözünə" qorxmadan baxan igidlərin qəhrəmanlığı tarixin qan yaddaşına həkk olundu. Onlar Vətən uğrunda, xalqın firavanlığı, torpaqlarımızın azadlığı uğrunda döyüşdülər.

**Bibixanım İSAYEVA.**

# Ən qısa müharibə: zəfər təməli

Hər bir müharibənin bir başlanma səbəbi olur. Dövlətimiz qan tökülmədən, siyasi danışıqlar yolu ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün illərlə mübarizə apardı. Ancaq məlum olduğu kimi BMT tərəfindən qəbul olunan qətnamə və qərarlar sənəd üzərində qaldı. 30 ilə yaxın dövr ərzində Atəşkəs olmasına rəğmən dəfələrlə (bəzən hər gün) sərhəd zonalarında hərbi toqquşmalar, sazişin pozulması halları baş verdi: doğrudur, hər bir toqquşma layiqli cavabını almışdır. Ancaq bəzi dövlətlərin gücünə arxalanan qarşı tərəfin bitmək bilməyən iddiaları illər boyu davam etmişdir. Məhz 2016-cı ildə baş verən Aprel döyüşləri də belə hərbi toqquşmalardan idi. Ancaq bu toqquşma hərbi əhəmiyyətli "kiçik" bir müharibəyə çevrildi. Bu müharibə illər sonra qazanılan Zəfər tarixinə zəmin yaratdı.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatına görə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış mənbələri Ermənistan silahlı qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalır. Sutka ərzində atəşkəs cəbhənin müxtəlif istiqamətlərində 82 və 120 millimetrlik minalardan və iriçaplı pulemyotlardan istifadə etməklə 127 dəfə pozulmuşdur.

Döyüşlər başlamazdan qabaq Azərbaycan Ordusunun diversiya qrupları cəbhənin dərinliyinə sızaraq bəzi əməliyyatlar həyata keçirmişdi. Belə əməliyyatların biri Aprel döyüşlərindən iki həftə öncə baş vermişdi. Bu əməliyyat zamanı Azərbaycanın diversiya qrupu arxa cəbhənin olduqca dərinliyinə sızaraq, Əsgəran bölgəsindəki HHM kompleksinin RLS-ni məhv etmişdi.

Aprelin 3-də Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi azad olunur. Həmçinin Füzuli istiqamətində Ermənistanın pilotsuz uçuş aparatı vurulur. Ancaq Seysulan kəndi haqqındakı məlumatlar ziddiyyətli qalır.

Aprelin 4-də Ermənistan itirilmiş mövqelərini bərpa etmək məqsədilə Ağdərə-Tərtər, Xocavənd-Füzuli istiqamətində hücumlar edir və təmas xəttinə yaxın olan yaşayış məntəqələrimizi intensiv surətdə atəşə tutur.

Aprelin 5-də Ağdərə şəhərinə aparan əsas yol üzərindəki strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindən hərbi bazanın qərərgahı və "Yerkrapa" erməni könüllülərini cəbhəyə gətirən avtobusa zərbə endirilir. Aprelin 5-də Xocavənd - Füzuli istiqamətində erməni qüvvələrinin 2 ədəd



tankı heyətlə birlikdə və hərbi əmlakla dolu 5-dək təkərli texnikası sıradan çıxarılır

Aprelin 5-də saat 12-dən etibarən Azərbaycan - Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırılır. Razılaşma Moskvada Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin baş qərərgah rəisləri arasında əldə edilir. Azərbaycan Silahlı Qüvvələrinin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirir.

Atəşkəs olmasına baxmayaraq Ermənistan tərəf aprelin 6-da günorta saatlarınadək dayanmadan Naxçıvan bölgəsinin Ordubad, Şahbuz, Babək rayonlarını silahlar və qumbaraatanlarla atəşə tutmuşdur. Onları ordumuz lazımi cavab atəşi ilə susdurmuşlar.

Həmçinin aprelin 7-də cəbhə bölgəsində mövqelərimiz üzərində Ermənistan dövləti uçuşlar keçirməyə cəhd göstərmiş, lakin onların "X-55" tipli pilotsuz uçuş aparatı xüsusi üsulla endirilib, cəbhə xəttinə edilən müdaxilələr cavablandırılaraq layiqincə susdurulmuşdur.

5 aprel atəşkəsi Ermənistanda ehtiyatlı optimistliklə qarşılandı. Erməni rəsmiləri əvvəlcə erməni qüvvələrinin effektiv fəaliyyətini vurğulamışdısa da, ictimaiyyətin son nəticədəki xəyal qırıqlığı ordunun korrupsiyaya və könüllülüyünə yönəldildi. Hərbi əməliyyatların uğursuzluğunda məsuliyyət cəbhə xətləri boyunca köhnəlmiş avadanlıq və kommunikasiya xətlərinin olmasına yönəldildi. 2020-ci ilə qədər Ermənistan tərəfi cəbhə xəttinə ABŞ-dan alınan 225 müasir videomüşahidə avadanlıqları quraşdırmaqla bu çatışmazlığı qismən aradan qaldırmağa çalışıb. Bu sistem kilometrlərlə uzaqdan istənilən hərəkəti qeydə alırdı və xüsusi komanda mərkəzinə ötürürdü. Həmçinin Ermənistan təmas xətti boyu öz müdafiə istehkamlarını möhkəmləndirmişdi, xüsusən şimal istiqamətində beton bunkerlər şəbəkəsi qurmuşdu. Həmin bunkerləri 44 günlük müharibədə bir tonluq ağır bombalar belə dağıda bilmirdi. Ancaq ordumuzun gücü, xalqla ordunun birliyi ilə Ermənistanın bütün müdafiə xətləri, gücü 44 günlük müharibədə öz qüvvəsini itirdi. Ordumuz zəfər çaldı, torpaqlarımız işğaldan azad olundu.

Ancaq Aprel döyüşləri bu qələbənin özət xətti sayılırdı. Axı Aprel döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmişdi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdu. Azərbaycan Prezidenti İlham Əliyev iyulun 10-da Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd edib ki, Aprel döyüşləri zamanı 2 min hektar ərazi işğaldan azad edilmişdir.

Aprel döyüşlərində 101 hərbçi şəhid olmuş, 5 hərbçi itkin düşmüş, 44 hərbçi yaralanmış, 6 mülki şəxs öldürülmüş, 26 mülki şəxs yaralanmışdır. Ermənistan tərəfdən həm insan, həm də hərbi sursat itkisi daha çox olmuşdur. Aprel döyüşlərindən artıq 10 il keçir. Bu 10 ildə, eləcə də tariximizdə Aprel döyüşləri Zəfər tariximizin əzəli kimi qalır və qalacaqdır. Aprel döyüşlərində şəhid olan oğullarımız əbədi olaraq xalqın yaddaşında yaşayacaqdır.

**Bibixanım İSAYEVA.**

# Leytenant Şirinov Sahil Həsrət oğlunun xatirəsi anılmışdır



Rayonumuzun Bum qəsəbəsində Qəbələ Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların nümayəndələrinin və kənd ictimaiyyətinin iştirakı ilə Aprel döyüşlərinin 10-cu ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə 2016-cı il Aprel döyüşlərində şəhadətə qovuşan şəhid Sahil Həsrət oğlu Şirinovun xatirəsi ehtiramla yad edilmiş, ruhuna dualar oxunmuşdur. Şəhidin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Gənclər sağlam gələcək uğrunda



Narkomaniya ilə mübarizə və sağlam həyat tərzinin təbliği məqsədilə Qəbələ rayon Heydər Əliyev Mərkəzi və Mərkəzləşdirilmiş Kitabxana Sisteminin şəhər 2 saylı filialının birgə təşkilatçılığı ilə maarifləndirici tədbir keçirilib. Tədbirdə çıxış edənlər narkomaniyanın insan sağlamlığına, ailə institutuna və ümumilikdə cəmiyyətə vurduğu ciddi zərərlərdən, bu istiqamətdə aparılan dövlət siyasətinin əhəmiyyətindən, narkotik vasitələrin istifadəsinin doğurduğu hüquqi və tibbi fəsadlar, asılılığın yaranma səbəbləri və onun qarşısının alınması yolları barədə ətraflı məlumat veriblər. Tədbir çərçivəsində mövzu ilə əlaqədar videoçarx nümayiş olunmuş, iştirakçıları maraqlandıran suallar cavablandırılmış və mövzu ətrafında müzakirələr aparılmışdır.

# Təbrik edirik



Vəndam qəsəbəsi 1 nömrəli tam orta ümumtəhsil məktəbinin Polad adlı komandası Qəbələdə məktəblər arasında keçirilənı Sərhəd idman yarışlarında qalib gələrək I yerə çıxdı . II tura keçən komandamız Şəkidə keçirilən yarımfinalda II yeri tutub. Şagird və müəllimlərimizi təbrik edir, uğurlar arzulayırıq.